# MİKAYIL RZAQULUZADƏ

# EL GÜCÜ

*("Dədə Qorqud" boyları üzrə hekayələr)*

## 1. İGİDİN ADI

Uca dağların almaz kimi parıldayan qarlı-buzlu təpələrindən sis-duman çəkilir, göylərin gözəl qızı nazlı-nazlı gülümsəyir, üfüqləri seyr edirdi. Təbiət qış yuxusundan oyanır, göylər də, yerlər də əlvan rənglərə boyanırdı. Yamaclarda boynubükük bənövşələrin, ala-bəzək dağ çiçəklərinin ətri saçılır, ağaclarda rəngbərəng çiçəklər açılır, məxmər otların arasından büllur sular süzülür, qönçələrə, düyməcələrə parlaq incilər düzülürdü.

Bahar füsunkar, əfsanəvi gözəlliyi ilə bizim ellərə gəlirdi. Baharla birgə onun şux elçiləri: qaranquşlar, sığırçınlar şən nəğmələrlə dəstə-dəstə uçuşub ötüşür, bu ellərin daimi vəfalı nəğməkarları: nazlı turaclar, xınalı kəkliklər, çil bildirçinlər onlarla səs-səsə verib baharı salamlayır; bütün quşların dilini bilən kəkilli, boz turağaylar ucalıb havadan asılaraq, qonaq sevən ev sahibləri kimi, baharı və gələn quşları, hərəni öz dilində qarşılayırdılar:

Xoş gəldin, gözəl bahar!
Xoş gəldiniz, a quşlar!

Bir yamacın döşündə yurdun gözəl, çevik, qıvraq qızları, oğlanları halay vurub yallı gedir, onlar da quşlar kimi səs-səsə verib günəşi, baharı, quşları salamlayırdılar:

Xoş gəldin, gözəl Günəş!
Sən, ey müqəddəs atəş!
Xoş gəldin, nazlı bahar!
Xoş gəldiniz, a quşlar!..

El dədə-baba adətincə bayram edirdi; bu bayram Günəş bayramı, bahar bayramı, zəhmət və bərəkət bayramı idi.